**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 43/08**

**Bakı şəhəri** **21 noyabr 2024-cü il**

**“Bələdiyyə büdcəsinin icrası haqqında” 4-BB №-li (rüblük, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-ci il 15 yanvar tarixli 6/08 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. “Bələdiyyə büdcəsinin icrası haqqında” 4-BB №-li (rüblük, illik) rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında” Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2015-ci il 15 yanvar tarixli 6/08 nömrəli qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.2-ci bəndə “rəsmi statistika” sözlərindən əvvəl “rüblük, illik” sözləri əlavə edilsin;

1.2. həmin qərarla təsdiq edilmiş “Bələdiyyə büdcəsinin icrası haqqında” 4-BB №-li (rüblük, illik) rəsmi statistika hesabatı formasının “C bölməsi. Xərclər (iqtisadi təsnifat üzrə)” cədvəlinin 54-cü sətrində “rabitə” sözü “telekommunikasiya və poçt rabitəsi” sözləri ilə əvəz edilsin;

1.3. həmin qərarla təsdiq edilmiş “Bələdiyyə büdcəsinin icrası haqqında” 4-BB №-li rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş”in 2.3.5-ci yarımbəndinin birinci cümləsində “və rabitə” sözləri “, telekommunikasiya və poçt rabitəsi” sözləri ilə əvəz edilsin.

2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

3. Aparatın Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədrin səlahiyyətlərini müvəqqəti icra edən, sədrin birinci müavini** **Vahab Məmmədov**